# Küləyin və kitab vərəqlərinin xoş xışıltısı...

## İçərişəhərdəki V Milli Kitab Sərgisindən reportaj





**Sərgiyə getmək üçün paytaxtın Nizami küçəsindən keçib Nigar Rəfibəyli küçəsinə dönüncə, vaxtilə burada böyük "Kitab passajı"nın olduğunu xatırladım. Elə 26 A– 26G ünvanında divara vurulmuş barelyefdən "Xalq şairləri Rəsul Rza və Nigar Rəfibəyli bu evdə yaşayıb yaratmışlar" cümləsini oxuyanda onların övladı Anar Rzayevin çiynində çanta asta-asta üzü passaja getməsi gözümün önündə bir daha canlandı...**

Amma təəssüf ki, indi məşhur məkanda nə "Kitab passajı" qalıb, nə də rəssamların əl işlərini satdıqları guşələr. Əvəzində kafelər, telefon, suvenir, ətriyyat dükanları, "Tantuni" və sair var. Bir sözlə, kitabdan başqa hər şey.

Bir qədər üzüyuxarı gedib Təbriz Xəlilbəyli küçəsində haçansa olmuş daha bir kitab mağazasının qalıb-qalmadığını öyrənmək istədim. O da yerli-dibli yoxa çıxmışdı. Təəssüf hissi və nostalji duyğularla oradan aralanıb V Milli Kitab Sərgisinin təşkil edildiyi Qoşa Qala qapısı tərəfə üz tutdum. Xoşbəxtlikdən, meydanda əsl kitab bumunun yaşandığına şahid oldum. Qala divarlarını yalayıb ötən küləyin xışıltısına kitab səhifələrinin xışıltısı da qarışaraq xoş bir ahəng yaratmışdı...

Artıq neçə gündür ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatı dəstəyi ilə müstəqil nəşriyyatların keçirdiyi sərgi Həsən bəy Zərdabinin heykəlinə qədər olan geniş meydanı əhatə edir. Azərbaycan Beynəlxalq Bankının, Fortis Qrupun və İsveç səfirliyinin sponsorluğu ilə başa gələn sərgi çərçivəsində təqdimatlar, müzakirələr, panellər, görüşlər, ustad dərsləri və imza günləri keçirmək üçün Bakı Foto Evi, Maqsud İbrahimbəyovun ev-muzeyi və Həsən bəy Zərdabi dəhlizi iştirakçıların ixtiyarına verilib. Bəzi tədbirlərsə qədim şəhərin müxtəlif məkanlarında, açıq havada təşkil olunur.

"Qanun" Nəşrlər Evinin çadır-guşələrində bizə sərgi haqqında geniş tanıtım materialların toplandığı "Kitab bələdçisi" adlı broşür verilir. Elə oradaca Həbibbəy Mahmudbəyov adına 2 saylı liseyin şagirdləri əllərində "Kitab bələdçisi" tutaraq tanınmış naşir Şahbaz Xuduoğlu ilə xatirə şəkli şəkdirirlər. Onlarla maraqlı sual-cavab edən naşir fərqlənənlərə kitab hədiyyə edir. Sonra mənim "Sərgi barədə nə deyə bilərsiniz?" sualıma cavab olaraq qısaca deyir:

-Sərgi əla gedir. Nəşriyyatımızın bütün bədii, publisistik, sosial və siyasi kitablarını, bestseller ədəbiyyatını oxuculara 30 faiz qiymət endirimi ilə təklif edir. Alıcılar da çoxdur.

Ümumiyyətlə, doqquz günlük sərgidə ziyarətçilərə 30-70 faizədək endirimli 70 mindən çox kitab təklif edilməsi fərəhli haldır. Tanınmış yazıçı Şərif Ağayar oxucuların, xüsusilə də gənclərin kitaba əlçatanlığının təmin edilməsi, onların mütaliəyə daha sıx bağlanmaları baxımından belə tədbirləri zəruru saydığını bildirir.

-Milli kitabın İçərişəhərdə təqdimatı ciddi strateji məsələdir, - deyir. - Dünyada qazanılan bütün qələbələr kitablarla əbədi olur. Bir də ki, kitabı zəif olan güclü ölkə tapmaq qeyri-mümkündür. Bu baxımdan, dövlət səviyyəsində keçirilən tədbirlərdən başqa, müstəqil nəşriyyatların da belə sərgilər keçirməsi təqdirəlayiqdir. Bütün qurumları kitab məsələsində birliyə çağırırıq. Qoy, dünya görsün ki, biz hərb meydanında qalib gəldiyimiz kimi, kitaba xüsusi münasibətimizlə də fərqlənirik. Arzu edərdim ki, kitabla bağlı tədbirlər yaxın gələcəkdə Şuşada, Laçında da təşkil olunsun.

Ötən günlərdə sərgi xalq yazıçıları Anar və Çingiz Abdullayev, həmçinin Əlisa Nicat, Elçin Hüseynbəyli, Ərşad Əzimzadə, Rəhman Bədəlov, Akif Aşırlı, Mehriban Vəzir, Ədalət Tahirzadə, Xalq artisti Vidadi Həsənov, memar Elçin Əliyev və digərləri ilə keçirilən görüş və imza günləri yaddaqalan olub.

Milli Kitab Sərgisini gəzənlər arasında xarici qonaqlar da çoxdur. Onu da deyək ki, xarici ölkə səfirlikləri də sərgidə iştirak edir, maraqlı təqdimatlar keçirirlər. Məsələn, Argentina səfirliyi tərəfindən Eduardo Sacherinin "Gözlərindəki sirr" kitabının təqdimatını qeyd etmək olar. İsveç səfirliyi hamının sevdiyi Karlson, Pippi və Emili qəhrəmanlarının yaradıcısı Astrid Lindqrenin əsərləri ilə balaca oxucuları tanış edib. Yaponiya səfirliyinin kalliqrafiya ilə bağlı ustad dərsi böyük maraq kəsb edib. Məşhur türk yazarları Ahmet Ümit və Şah Selimi Türkay da Milli Kitab Sərgisində iştirak edirlər.

Sərgidə 15-dən çox özəl nəşriyyat – "Əli və Nino", "İzə", "TEAS Press", "Ting" və digər nəşriyyatlar, kitabçılar, ikinci əl kitabların satıcıları, bukinistlər, öz kitablarının satışını həyata keçirən müəlliflər fəal iştirak edirlər.

Bir tərəfdə alıcılara öz kitablarını təklif edən Azərbaycan Yazıçılar Birliyi və Braziliya Yazarlar Klubunun üzvü, həmyerlimiz Rüstəm Mirzəyevlə tanış oluruq.

-Vətənə istirahətə gəlmişdim. Belə bir möhtəşəm tədbirin keçirildiyini bilən kimi ona qatılmağı qərara aldım. Mən əsasən rusca yazıram. Burada "Nə üçün", "Prokuror" və "Qızıl şar" kitablarım satılır. Özü də hər bir kitabı 1 manata təklif edirəm ki, alan çox olsun. Üstəlik, bir kitab alana birini də hədiyyə edirəm.

Bu sətirlərin müəllifi də sərgidə Azərbaycan dilinə tərcümə etdiyi kitabları görməkdən məmnun qalır. Bunlar ingilis yazarı Corc Oruellin "Kataloniyaya məhəbbətlə", "Birma günləri" və "Yaşasın fikus" kitablarıdır. Gənc alıcı Fuadın xahişi ilə kitablardan birini onun üçün imzalayıram.

Sərgi çərçivəsində bədii proqramlar da təqdim olunur. Balaca ziyarətçilər böyük həvəslə Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Qavaldaş" nağara-ritm qrupunun və "Simurq" kukla teatrının çıxışlarını izləyirlər.

V Milli Kitab Sərgisi iyunun 4-dək davam edəcək.

***Ə.NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 2 iyun.- S.9.